Yazan
29.11.13 17:44 -

Gürcüstan və Moldova “Şərq tərəfdaşlığı”nın Vilnüs sammiti çərçivəsində Avropa Birliyi ilə assosiasiya sazişini paraflayıblar.

APA -nın xəbərinə görə, texniki paraflanma bir gün əvvəl olsa da, rəsmi imzalar bu gün atılıb. Gürcüstanın yeni prezidenti Georgi Marqvelaşvili qısa çıxış edərək bu imzanın tarixi əhəmiyyətindən danışıb. Moldova baş naziri Yuri Lyanke də ölkəsi üçün çox önəmli an olduğunu vurğulayıb: “Moldova Avropa ölkəsidir və Avropa ilə eyni tarixə malikdir. Biz bir ailənin mənsublarıyıq”.

Gürcüstanın xarici işlər naziri Maya Pancikidze və AB-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali komissarı Ketrin Eşton Gürcüstanın böhran vəziyyətlərinin idarə olunmasında iştirakına dair çərçivə sazişi də imzalayıblar.